# "Capital Partners İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən İNVESTİSİYA XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR (fiziki şəxslər üçün) ÜMUMİ OFERTA

Bakı şəhəri

Fiziki şəxslərə investisiya xidmətlərinin göstərilməsinə dair Ümumi Offerta (bundan sonra "Offerta") "Capital Partners İnvestisiya Şirkəti" QSC (bundan sonra "İnvestisiya Şirkəti") tərəfindən fiziki şəxslərə (bundan sonra - "Müştəri") Ümumi Şərtlərdə nəzərdə tutulan investisiya xidmətlərinin göstərilməsi ilə bağlı qayda və şərtləri tənzimləyir.

Offertada "İnvestisiya Şirkəti" və "Müştəri" ayrılıqda "Tərəf", birlikdə "Tərəflər" adlandırılacaq.

Offertanı imzalamaqla Müştəri bəyan edir ki, Offertada nəzərdə tutulan bütün qayda və şərtləri bütünlüklə anlayır və qəbul edir.

## 1. Anlayışlar

1.1. Offertada istifadə edilən söz və ifadələr aşağıdakıları mənaları bildirir:

**Bank hesabı** - Müştərinin "Rabitəbank"ASC-də açdığı aktiv cari hesab.

**Müştəri** - Azərbaycan Respublikasının rezidenti olan, investisiya xidmətlərindən istifadə etmək istəyən, on səkkiz yaşına çatmış fiziki şəxs.

**Müştəri məlumatları** - Müştəriyə aid fərdi məlumatlar, habelə, Müştərinin İnvestisiya hesabı və əməliyyatları barədə məlumatlar.

**Əqd** - İnvestisiya alətlərinin alqı-satqısı ilə bağlı həyata keçirilmiş və icra olunmuş əməliyyat.

**İnvestisiya aləti** - Platforma vasitəsilə alınıb-satılması mümkün olan, fond birjalarında ticarət olunan səhm, hissəvi səhm, fərq müqavilələri (CFD), depozitar qəbzi, birjada ticarət olunan investisiya fond payı (ETF), investisiya fond payı və digər maliyyə alətləri.

**İnvestisiya hesabı** - Müştərinin adına qeydiyyata alınan və onun xeyrinə açılan hesab.

**İnvestisiya hesabına daxil olan aktivlər** - Müştərinin İnvestisiya hesabındakı bütün İnvestisiya alətləri və pul vəsaiti.

**İnvestisiya alətləri üzrə gəlirlər** - İnvestisiya alətləri üzrə faiz gəlirləri (kupon, diskont), dividend, həmin alətlərin alqı-satqısından əldə olunan gəlir və digər analoji gəlirlər.

**Platforma** - "Rabitəbank" ASC-nin mobil tətbiqində mövcud olan investisiya modulu.

**Sifariş** - Müştərinin İnvestisiya alətlərinin alqı-satqısı ilə bağlı Platforma vasitəsilə elektron qaydada təqdim etdiyi tapşırıq.

**Baza aktivi** - CFD-nin əsasını təşkil edən və qiymət dəyişikliyinə dair müqavilənin bağlandığı aktiv (məsələn, kriptovalyuta, səhm, indeks).

**Kriptovalyuta** - Əməliyyatların təhlükəsizliyini təmin etmək və yeni vahidlərin yaranmasına nəzarət etmək üçün kriptoqrafiyadan istifadə edən rəqəmsal və ya virtual aktiv.

**Fərq müqaviləsi (CFD)** - Baza aktivin fiziki təchizatı olmadan, mövqenin açılış və bağlanış qiymətləri arasındakı fərq şəklində yalnız pul formasında hesablaşmaların aparıldığı müqavilə.

**Bazar qiymətli sifariş (Market Order)** - İnvestisiya alətinin dərhal və cari maliyyə bazarında mövcud olan ən sərfəli qiymətə alınması və ya satılması üçün verilən sifariş növü.

**Limit sifariş** – Müştərinin təyin etdiyi qiymətdən və ya daha yaxşı qiymətdən icra edilməli olan alış və ya satış tapşırığıdır.

**Təminat** - Müştərinin İnvestisiya Hesabında olan və CFD üzrə açılan mövqenin dəyərinin 100%-i həcmində tələb olunan, mövqenin açılması və saxlanması üçün zəruri olan pul vəsaiti.

**Svop (Rollover)** - CFD üzrə açıq mövqenin növbəti günə keçirilməsi üçün Müştərinin hesabından tutulan ödəniş.

**Xarici Broker** - brokerlik fəaliyyəti ilə bağlı müvafiq lisenziya almış, Müştəri Sifarişlərinin icrasını və əlaqəli xidmətləri həyata keçirən "EXT" LTD.

**Bakı Fond Birjası (BFB)** - Azərbaycan Respublikasında qiymətli kağızların mütəşəkkil ticarətini təşkil edən əsas ticarət təşkilatçısı.

**Milli Depozit Mərkəzi (MDM)** - Azərbaycan Respublikasında qiymətli kağızlara dair mülkiyyət hüquqlarının mərkəzləşdirilmiş uçotunu aparan qurum.

**Depo-hesab** - Müştərinin qiymətli kağızlarının MDM-də uçotunun aparıldığı hesab.

**Vergi** - ABŞ və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, investisiya alətləri üzrə gəlirdən tutulmalı və ya hər hansı digər vergi növləri.

**Müvafiq qanunvericilik** - Tərəflərə və ya Xarici Brokerə münasibətdə tətbiq olunan hüquq və digər məcburi xarakterli qaydalar.

**Özünüqiymətləndirmə anketi** - Vergi rezidentliyinin müəyyən olunması üçün hesab açılması ilə bağlı Müştəriyə təqdim edilən sənədlər toplusu.

**ƏL/TMM** - Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair qanunvericilik aktları.

## 2. Ümumi müddəalar

2.1. İnvestisiya Şirkəti Müştəri aktivlərinin cinayət yolu ilə qazanılmadığını və onların terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə edilməyəcəyini yoxlayır, belə hallar üzrə şübhələr yarandıqda qanunvericiliyin tələbi üzrə tədbirlər görür. Qeyd edilən faktlar üzrə İnvestisiya Şirkəti öz mülahizəsinə əsasən müştəri hesabını açmaq, bağlamaq, dondurmaq və ya ləğv etmək hüququnu özündə saxlayır.

2.2. Müştəri tərəfindən sifarişin təqdim edilməsi, bu sifarişdə qeyd edilmiş və ya elektron ticarət platforması vasitəsi ilə Müştəriyə təqdim edilmiş bütün parametrləri, o cümlədən, qiymət, predmet (qiymətli kağız, törəmə maliyyə aləti və ya hər hansı aktiv), ödənişlər üzrə bütün ticarət şərtlərini qəbul etməsi kimi qiymətləndirilir.

2.3. Ticarət təşkilatçısı, maliyyə bazarları, o cümlədən elektron ticarət platformaları vasitəsi ilə təşkil edilən ticarət əməliyyatlarının icrasında baş verən texniki nasazlıq nəticəsində Müştərinin əldə etdiyi gəlir və ya zərər İnvestisiya Şirkəti tərəfindən Müştəri hesabına əlavə edilə və ya müvafiq olaraq silinə bilər.

2.4. Bu Oferta ilə göstərilən xidmətlər üzrə tariflər/xərclər birtərəfli qaydada dəyişdirilə bilər. Belə dəyişiklik bilavasitə İnvestisiya Şirkətinin qərarlarından asılı olduqda dəyişiklik barədə İnvestisiya Şirkəti tərəfindən qəbul olunmuş qərarın tətbiq edilməsindən ən azı 15 (on beş) təqvim günü əvvəl müştərilərə bu barədə məlumat verilir.

2.5. Bu Ofertaya münasibətdə Müştərinin xarici bazarda əldə etdiyi qiymətli kağızlar və ya törəmə maliyyə alətləri xarici kontragentdə açılmış hesabda və ya müvafiq depozitarda saxlanılır.

2.6. Müştəriyə qiymətli kağızlar, törəmə maliyyə alətləri və digər maliyyə aktivləri üzrə təqdim edilən qiymətlər birbaşa məlumat təminatçılarından alına bilər. Müştəri qəbul edir ki, bu zaman ticarət məlumatlarının alınması və sifarişlərin icrası yeri arasındakı fərqli texniki xüsusiyyətlərə görə sifarişlərin icrası İnvestisiya Şirkəti tərəfindən həyata keçirilməyə bilər.

**3. Risklər barədə Bildiriş**

3.1. Ümumi Xəbərdarlıq. Müştəri bu Ofertanı qəbul etməklə təsdiq edir ki, o, investisiya fəaliyyətinin yüksək risklərlə bağlı olduğunu anlayır. Qiymətli kağızlar və digər maliyyə alətlərinin dəyəri həm arta, həm də azala bilər və Müştəri yatırdığı vəsaiti qismən və ya tamamilə itirə bilər. Keçmiş nəticələr gələcək gəlirlərə zəmanət vermir.

3.2. Müştərinin Məsuliyyəti. Bütün investisiya qərarları yalnız Müştəri tərəfindən və onun öz riskləri hesabına qəbul edilir. İnvestisiya Şirkəti investisiya məsləhəti vermir və Müştərinin ticarət əməliyyatlarının nəticələrinə görə məsuliyyət daşımır.

3.3. Platforma və Texniki Risklər. Müştəri Platformadan istifadə ilə bağlı yaranacaq riskləri (sistem nasazlıqları, internetdə kəsilmələr, sifarişlərin təkrarlanması və s.) anlayır və bu kimi texniki nasazlıqlar nəticəsində yaranan zərərlərə görə İnvestisiya Şirkətinin məsuliyyət daşımadığını qəbul edir.

3.4. Yekun Təsdiq. Müştəri bu bölmədə təsvir edilən bütün riskləri, o cümlədən bu Ofertada birbaşa göstərilməyən digər mümkün riskləri tam anladığını və qəbul etdiyini təsdiq edir.

**4. İnvestisiya xidmətlərinin təsviri**

4.1. İnvestisiya Şirkəti Müştərilərə İnvestisiya hesabının açılması, İnvestisiya alətlərinin alınıb satılması ilə bağlı Müştəri Sifarişlərinin qəbulunu, onların icra üçün Xarici Brokerə və ya müvafiq ticarət təşkilatçısına ötürülməsini xidmətini (investisiya xidmətləri) Offertada nəzərdə tutulmuş qaydada həyata keçirməyi öhdəsinə götürür.

4.2. Müştəri tərəfindən İnvestisiya hesabının açılması, Müştəri Sifarişlərinin təqdim edilməsi yalnız elektron qaydada, Platforma vasitəsilə həyata keçirilir.

4.3. İnvestisiya Şirkəti beynəlxalq bazarlara çıxışla bağlı xidmətlərə əlavə olaraq, Müştəriyə Azərbaycan Respublikasının mütəşəkkil qiymətli kağızlar bazarında xidmətlər göstərir. Bu xidmətlərə Bakı Fond Birjasında (BFB) qiymətli kağızlarla əməliyyatlara dair sifarişlərin qəbulu və icrası, habelə Müştərinin qiymətli kağızlarının uçotu üçün Milli Depozit Mərkəzində (MDM) onun üçün depo-hesabın (subhesabın) açılması və aparılması daxildir.

4.4. İnvestisiya Şirkəti, bu Ofertada göstərilən digər xidmətlərə əlavə olaraq, Müştəriyə kredit çiyni olmadan (marja ticarəti olmadan) və mövqenin tam dəyərinin 100% həcmində pul təminatı ilə Kriptovalyutalara və digər baza aktivlərinə dair Fərq Müqavilələri (CFD) ilə ticarət əməliyyatları aparmaq xidmətini təklif edir.

**5. Müştərinin hüquq və vəzifələri**

5.1. Müştəri Offertanı qəbul edərkən təsdiq edir və zəmanət verir ki:

5.1.1. Təqdim etdiyi bütün məlumat və sənədlər etibarlı, həqiqi və düzgündür.

5.1.2. Offertada nəzərdə tutulmuş İnvestisiya xidmətlərindən, şəxsən və yalnız qeyri-sahibkarlıq və şəxsi məqsədlər üçün istifadə edəcək.

5.1.3. ƏL/TMM qanunvericiliyinə əsasən adı heç bir sanksiya siyahısına daxil edilməyib.

5.2. Təsdiq və zəmanətlərin yanlış və ya natamam olması, İnvestisiya hesabından istifadənin məhdudlaşdırılması, habelə İnvestisiya hesabının bağlanması üçün əsasdır.

5.3. İcra edilmiş sifarişə görə ödəmələrin və xidmətin göstərilməsi ilə bağlı əlavə xərclərin bu Oferta ilə nəzərdə tutulan qaydada tariflərə uyğun olaraq tam və vaxtında qarşılanmasını təmin edəcək.

5.4. Müştəri uyğunluğu tədbirləri ilə bağlı İnvestisiya Şirkəti tərəfindən sorğu edilən məlumat və sənədləri, düzgün və təhrif olunmamış formada 5 (beş) iş günü müddətində İnvestisiya Şirkətinə təqdim edəcək.

5.5. İnvestisiya Şirkətinə təqdim etdiyi eyniləşdirmə məlumatlarında hər hansı dəyişiklik baş verdikdə, bu barədə İnvestisiya Şirkətini 5 (beş) iş günü ərzində məlumatlandırmaq və yenilənməni təsdiq edən müvafiq sənədləri İnvestisiya Şirkətinə təqdim edəcək.

5.6. Bu Oferta imzalanarkən, o cümlədən sonradan tələb edildikdə İnvestisiya Şirkətinə düzgün və təhrif olunmamış məlumatları təqdim edəcək.

5.7. Müştəri, əqdin bağlanması ilə nəticələnən hər bir sifariş üçün həmin əqdin bağlandığı an qüvvədə olan tariflərə uyğun xidmət haqqını, habelə mövqenin açıq saxlandığı müddət üçün hesablanan digər xərcləri (məsələn, svop/rollover) İnvestisiya Şirkətinin rəsmi internet səhifəsində dərc edilmiş Tariflərə uyğun olraq ödəməyi öhdəsinə götürür.

5.8. Hesabdan yalnız konvertasiya əməliyyatlarının həyata keçirilməsi məqsədilə istifadə etməyəcək.

5.9. Yuxarıda qeyd olunan fəaliyyətlərlə məşğul olmaq Müştəriyə öncədən xəbərdarlıq edilmədən hesab əməliyyatlarının dayandırılması və (və ya) hesabın bağlanması ilə nəticələnə bilər.

5.10. Müştərinin Azərbaycanın mütəşəkkil qiymətli kağızlar bazarında əməliyyatlar üzrə əlavə vəzifələri:

MDM-də uçota alınan qiymətli kağızlarla əməliyyatların aparılması üçün Şirkətə qanunvericiliklə və Platformanın funksionallığı ilə müəyyən edilmiş qaydada depo-hesab üzrə sərəncamlar təqdim etmək.

Sifarişin predmeti olan qiymətli kağızlarla bağlı ona məlum olan hər hansı yüklülük (məsələn, girov) barədə Sifariş verməzdən əvvəl Şirkəti məlumatlandırmaq.

Oferta üzrə öz öhdəliklərini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi nəticəsində Şirkətə dəymiş birbaşa zərəri və xərcləri ödəmək.

**6. İnvestisiya Şirkətinin hüquq və vəzifələri**

6.1. İnvestisiya şirkəti müştərinin müraciətinin onun gücləndirilmiş elektron imzası ilə təsdiqləməsini tələb edir.

6.2. Müştərinin təqdim etdiyi məlumatları elektron məlumat bazalarından və/və ya müstəqil kənar mənbələrdən yoxlayır.

6.3. İnvestisiya şirkəti gücləndirilmiş müştəri autentifikasiyası aparır (məlumatlarının məxfiliyini qorumaq üçün hazırlanmış və yalnız müştərinin və ya müraciət edən fiziki şəxsin "bildiyi", "sahib olduğu" və ya ona "məxsus olan" müstəqil elementlərin iki və ya daha çoxunun istifadəsinə əsaslanan autentifikasiya).

6.4. Müştərinin təqdim etdiyi sənədləri onun razılığı ilə sorğu əsasında etibarlı üçüncü şəxsdən və ya dövlət qurumundan əldə edir.

6.5. Yazışmanı və sənəd mübadiləsini müştərinin rəsmi qeydiyyat ünvanı üzərindən aparır.

6.6. Müştəridən hesabını və ya virtual kabinetini açdığı zaman ondan poçt, telefon və ya digər etibarlı yollarla təsdiqlənmiş ünvana təqdim olunan təhlükəsizlik kodlardan, elektron imzalardan, tokenlərdən və digər bu tipli şəxsiyyətini təsdiqləyən şifrələrdən istifadə edilməsini tələb edir.

6.7. İnvestisiya Şirkətinin daxili prosedurları ilə müəyyən edilmiş digər yoxlama və nəzarət tədbirlərini görür.

6.8. İşgüzar münasibətlər və aparılan əməliyyatlar zamanı tətbiq edilən eyniləşdirmə və verifikasiya tədbirləri müştərinin kimliyinin müəyyən edilməsinə imkan vermirsə və ya onun kimliyinin müəyyən edilməsində və təqdim olunmuş sənədlərin həqiqiliyinin yoxlanılmasında aradan qaldırılması mümkün olmayan şübhələr və ya uyğunsuzluqlar varsa əməliyyatın məsafədən həyata keçirilməsindən imtina edir.

6.9. Müştərilərə səlahiyyətli nümayəndə (hüquqi şəxsin qanuni təmsilçisi istisna olmaqla) vasitəsilə işgüzar münasibətlərin yaradılmasına yol verilmir.

6.10. Aşağıdakı hallarda, İnvestisiya hesabının açılmasından imtina edilə bilər:

6.10.1. Müştəri qeydiyyat prosedurunu tamamlamadıqda və ya natamam tamamladıqda, habelə Offertanı imzalamadıqda;

6.10.2. Müştərinin təsdiq və zəmanətləri yanlış və ya natamam olduqda;

6.10.3. ƏL/TMM qanunvericiliyi ilə bu cür hesabın açılması qadağan edildikdə;

6.10.4. İnvestisiya Şirkətinin mülahizəsi əsasında, Müştərinin adından digər şəxsin hərəkətləri aparması güman edildikdə;

6.10.5. Qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

6.11. Şirkətin Azərbaycanın mütəşəkkil qiymətli kağızlar bazarında əməliyyatlar üzrə əlavə hüquq və vəzifələri:

> **Hüquqları:** Müştərinin sifarişlərini icra etmək məqsədilə üçüncü şəxslər, o cümlədən MDM, BFB və reyestrsaxlayıcılar qarşısında Müştərinin səlahiyyətli nümayəndəsi (agenti) kimi çıxış etmək.
>
> **Vəzifələri:** Müştərinin mütəşəkkil bazarda aldığı qiymətli kağızların uçotunu onun üçün MDM-də müvafiq depo-hesab (subhesab) açmaqla təmin etmək.
>
> **Vəzifələri:** BFB-də sifarişləri icra edərkən Müştəri üçün mümkün olan ən yaxşı qiyməti əldə etmək üçün bütün ağlabatan tədbirləri görmək ("ən yaxşı icra" prinsipi).

6.12. Müştəri tərəfindən ona təqdim edilmiş Sifarişdə olan məlumatları öz maraqları və ya üçüncü şəxslərin maraqları üçün istifadə etməmək.

**7. Sifarişlərin verilməsi və qəbulu**

7.1. Müştəri tərəfindən İnvestisiya Şirkətinə yalnız "Al" və ya "Sat" Sifarişi təqdim edilə bilər. Bütün Sifarişlər elektron qaydada, Platforma vasitəsilə yerləşdirilməlidir.

7.2. "Al" Sifarişi Müştəri tərəfindən İnvestisiya hesabında lazımi həcmdə vəsait olduqda, təqdim edilə bilər.

7.3. İnvestisiya Şirkəti qəbul etdiyi Sifarişləri Xarici Brokerə və ya müvafiq ticarət təşkilatçısına ötürməyi öz üzərinə götürür, lakin onların uğurlu icrasına zəmanət vermir.

7.4. Müştəri tərəfindən Sifarişlər yalnız müvafiq Birjanın iş saatları ərzində təqdim edilə və icra oluna bilər. Birjanın iş saatlarından kənar vaxtlarda Platforma vasitəsilə təqdim edilən hər hansı Sifariş avtomatik olaraq ləğv edilir və icraya yönləndirilmir.

7.5. Sifarişlər, bir qayda olaraq, "bazar qiymətli sifariş" və ya "limit sifariş" növləri ilə təqdim edilir. Məhz "bazar qiymətli sifariş" növü üzrə Müştəri anlayır ki, say əsaslı Sifarişlərdə təqdim olunan Sifarişin təqribi məbləği ilə icra qiyməti arasında müsbət və ya mənfi fərq yarana bilər. Bu cür fərq (qiymət dəyişikliyi) nəticəsində Sifarişin tam icrası üçün Müştərinin pul vəsaiti kifayət etmədikdə, Sifariş icra edilməyəcək və ləğv edilmiş sayılacaq.

7.6. Müştəri anlayır ki, təqdim olunan Sifarişlər onun sərbəst iradə ifadəsini əks etdirir və İnvestisiya Şirkəti və özü üçün mülki hüquqi nəticələr yaradır.

7.7. Müştəri, icra edilməmiş hər hansı Sifarişi ləğv etmək üçün Platforma vasitəsilə sorğu göndərmək hüququna malikdir. Şirkət, belə sorğu daxil olduqda, Sifarişin birja tərəfindən icra edilmədiyi təqdirdə, onun ləğvi üçün bütün mümkün ağlabatan tədbirləri görür. Bununla belə, Müştəri anlayır və qəbul edir ki, maliyyə bazarlarının yüksək sürətli və avtomatlaşdırılmış təbiətinə görə, sifarişin ləğvi sorğusu ilə onun birjada faktiki icrası arasında texniki gecikmələr yarana bilər. Bu səbəbdən, sifarişlərin ləğvinə heç bir halda tam zəmanət verilmir. Həmçinin, Sifarişdə qüvvədə olma müddəti göstərilibsə, həmin müddət bitdikdə Sifariş ləğv edilmiş sayılır.

7.8. Sifarişin maksimal qüvvədə olma müddəti Sifarişin növündən və ticarət olunduğu bazardan asılıdır və Sifariş yerləşdirilərkən Platformada Müştəriyə göstərilir. Heç bir halda, Müştəri tərəfindən Mərkəzi Bankın müvafiq qaydalarının tələblərinə uyğun olaraq ildə bir dəfədən az olmayaraq yenidən təsdiqlənmədiyi təqdirdə, hər hansı Sifarişin qüvvədə olma müddəti bir ildən artıq ola bilməz.

**8. Sifarişlərin icrası**

8.1. Sifarişlərin icrası Xarici Broker tərəfindən və ya onun vasitəsilə, bir qayda olaraq, Birja saatı ərzində həyata keçirilir. Xarici Broker Sifarişləri "ən yaxşı icra" prinsipi əsasında müxtəlif birja və ya brokerlərə yönləndirir.

8.2. Xarici Broker öz mülahizəsi əsasında tabe olduğu müvafiq qanunvericiliyinin tələbləri və ya risk-əsaslı yanaşma əsasında, Sifarişlərin icrasından imtina edə bilər. Bununla bağlı, İnvestisiya Şirkəti Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

8.3. İcra olunmuş hər bir əqd üzrə Müştəriyə Platforma üzərindən təsdiq bildirişi təqdim edilir. Müştəri ona bu cür təsdiq bildirişi təqdim edildiyi tarixdən dərhal onunla tanış olmalı və hər hansı uyğunsuzluq müşahidə etdikdə, 3 gün ərzində "Capital Partners investisiya şirkəti" QSC-nin Məlumat Mərkəzinə müraciət etməlidir.

8.4. Müştəri anlayır ki, Xarici Broker üzvü olduğu Fond Birjalarının qaydalarına və müvafiq qanunvericiliyin tələblərinə tabedir. Qeyd olunanlarla, Ofertanın arasında ziddiyyət yarandıqda, birincinin tələbləri üstün qüvvəyə malik olacaq.

8.5. Həm beynəlxalq, həm də Azərbaycanın mütəşəkkil bazarında əqdin icrasının rəsmi təsdiqi Platformada formalaşan elektron hesabatdır. Bu hesabat Müştərinin əqdin icrası barədə lazımi

qaydada məlumatlandırılması hesab edilir və əqdin icra edildiyi andan etibarən 1 (bir) iş günündən gec olmayaraq Platformada yerləşdirilir.

8.6. Azərbaycan Respublikasının mütəşəkkil bazarında bağlanmış əqdlər üzrə hesablaşmalar Bakı Fond Birjasının və müvafiq klirinq və hesablaşma təşkilatlarının qaydalarına uyğun olaraq nağdsız qaydada həyata keçirilir.

**9. Pul Vəsaitlərinin mədaxili və məxarici**

9.1. İnvestisiya hesabına mədaxil "Rabitəbank" ASC-də açılmış AZN və ya ABŞ dolları valyutasında olan bank hesabları vasitəsilə həyata keçirilə bilər. AZN valyutasında edilən köçürmələr "Rabitəbank" ASC tərəfindən Bankın müəyyən etdiyi məzənnəyə uyğun olaraq avtomatik ABŞ Dollarına konvertasiya edilir və mədaxil olunan məbləğ qısa zamanda İnvestisiya hesabında əks olunur.

9.2. İnvestisiya alətləri üzrə gəlirlər də İnvestisiya hesabına əlavə edilir. İnvestisiya hesabında saxlanılan məbləğə heç bir faiz hesablanmır.

9.3. İnvestisiya hesabından pul vəsaitlərinin məxarici Müştərinin Platforma vasitəsilə verdiyi sorğuya əsasən onun "Rabitəbank" ASC-də olan cari və ya kart hesabına köçürülür. Məxaric əməliyyatları, bir qayda olaraq, sorğu qəbul edildikdən sonra 3 (üç) iş günü ərzində icra olunur.

9.4. İnvestisiya hesabından vəsaitlərin məxaricinə gündəlik və aylıq limitlər tətbiq oluna bilər. İnvestisiya Şirkəti öz mülahizəsi əsasında limitləri birtərəfli qaydada dəyişdirmək hüququna malikdir.

9.5. Müştəri anlayır ki, vəsaitlərin mədaxil və məxaricində bir neçə maliyyə institutu iştirak edir. Bununla bağlı, maliyyə institutları tərəfindən ƏL/TMM qanunvericiliyin tətbiqi ilə bağlı, vəsaitlərin köçürülməsində (Xarici Brokerə və ya Xarici Brokerdən) ləngimələr yarana bilər.

**10. Xidmət haqları və digər məsrəflər**

10.1. İnvestisiya xidmətlərinin göstərilməsi ilə əlaqədar İnvestisiya Şirkəti tərəfindən Müştəriyə müvafiq xidmət haqları tətbiq edilir. Xidmət haqlarının məbləği barədə məlumatlarla İnvestisiya Şirkətinin rəsmi internet səhifəsində (https://www.capitalpartners.az) tanış olmaq olar. Müştəri hər hansı Sifariş yerləşdirməzdən əvvəl cari xidmət haqları ilə tanış olmalı və yalnız, bundan sonra hər hansı əməliyyatın aparılması barədə qərar qəbul etməlidir.

10.2. Xidmət haqları, bir qayda olaraq, əqd bağlandıqdan sonra Müştərinin İnvestisiya hesabından silinir.

10.3. Qeyd olunan xidmət haqlarına vergi və digər məsrəflər aid edilmir. Əgər Sifarişlərin icrası ilə bağlı, çatdırılma, saxlama, klirinq təşkilatı, digər broker məsrəfləri yaranırsa, İnvestisiya Şirkəti Müştəridən bu cür haqların ödənilməsini tələb edə bilər.

10.4. Vaxtında ödənilməyən və ya tutulmayan xidmət haqları, yaranan digər məsrəflər, habelə, İnvestisiya hesabına yanlışlıqla mədaxil olunmuş vəsait İnvestisiya Şirkəti tərəfindən birtərəfli qaydada silinə bilər.

**11. Hesab üzrə məhdudiyyətlərin tətbiqi**

11.1. Aşağıdakı hallarda investisiya hesabı üzrə əməliyyatlar birtərəfli qaydada dayandırıla və ya məhdudlaşdırıla bilər:

11.1.1. Offertanın 5-ci bəndində nəzərdə tutulan şərtlər pozulduqda;

11.1.2. Dövlət orqanları və ya məhkəmənin sorğusu əsasında;

11.1.3. ƏL/TMM qanunvericiliyi pozuntusu, dələduzluq (fraud), qiymətli kağızlar bazarında manipulyasiya və ya insayd məlumatdan istifadə cəhdləri də daxil olmaqla, hesabdan qanunsuz istifadə barədə əsaslı şübhələr olduqda;

11.1.4. İnvestisiya Şirkətinin mülahizəsi əsasında, Hesab üzrə kiber insidentin baş verməsi güman edildikdə;

11.1.5. Xarici Broker tərəfindən bu cür qərar qəbul edildikdə;

11.1.6. Qanunvериliklə nəzərdə tutulan digər hallarda.

11.2. İnvestisiya Şirkəti Hesaba tətbiq edilən məhdudiyyətlər nəticəsində yaranan hər hansı ticarət itkiləri, itirilmiş mənfəət, vergi öhdəlikləri və ya digər zərərlərə görə məsuliyyət daşımır.

**12. İnvestisiya alətlərinin saxlanması və daxili uçotu**

12.1. Müştəri istənilən vaxt Platformaya daxil olaraq İnvestisiya hesabına daxil olan aktivlərlə real vaxt rejimində tanış ola bilər. Bundan əlavə, Müştəriyə aylıq əsasda, (hesab üzrə əməliyyat olmadıqda, isə rüblük əsasda) investisiya hesabından çıxarış təqdim ediləcək. Müştəri hesabdan çıxarışla həmin çıxarışın ona təqdim olunduğu tarixdən etibarən dərhal tanış olmalı və hər hansı uyğunsuzluq müşahidə etdikdə, 5 gün ərzində "Capital Partners İnvestisiya şirkəti"QSC-nin Məlumat Mərkəzinə (nömrə:) müraciət etməlidir. Əks halda, Bu müddət ərzində barəsində etiraz təqdim edilməyən məlumatlar yekun qəbul ediləcək və İnvestisiya Şirkətinə qarşı hər hansı tələb hüququ mümkün olmayacaq.

12.2. İnvestisiya alətlərinin və pul vəsaitlərinin saxlanması Xarici Broker və ya digər 3-cü şəxs tərəfindən təmin edilir.

12.3. Fərq Müqavilələri (CFD) ilə ticarət üzrə xüsusi şərtlər

12.3.1. Marja ticarətinin olmaması: Bütün CFD əməliyyatları kredit çiyni olmadan (1:1 nisbətində) aparılır. Müştəri mövqe açmaq üçün həmin mövqenin tam dəyərinin 100%-i həcmində sərbəst pul vəsaitinə malik olmalıdır. Bu vəsait mövqe açıq olduğu müddətcə onun təminatı kimi hesabda saxlanılır.

12.3.2. Fiziki təchizatın olmaması: CFD üzrə əqdlər Müştəriyə baza aktivinə (məsələn, kriptovalyutaya) dair heç bir mülkiyyət hüququ vermir. Bütün hesablaşmalar yalnız pul formasında, mövqenin açılış və bağlanış qiymətləri arasındakı fərq əsasında aparılır.

12.3.3. Svop (Rollover) ödənişləri: Müştərinin açıq CFD mövqelərinin növbəti günə keçirilməsi zamanı svop (rollover) ödənişi hesablana bilər. Müştəri Platformada qeyd olunan svop dərəcələri ilə tanış olmağa və bu xərcləri ödəməyə borcludur.

**13. Vergilər və digər tutulmalar**

13.1. Offertada əksini tapan xidmət haqları vergilər xaric qiyməti ehtiva edir.

13.2. Müştəri əldə etdiyi İnvestisiya alətləri üzrə gəlirlərə görə vergilərin ödənməsinə görə şəxsən məsuliyyət daşıyır. Müştərinin gəlirləri mənbədə vergiyə və digər tutulmalara cəlb edilə bilər. Qeyd olunan təqdirdə, İnvestisiya Şirkəti ancaq xalis həcmdə ona çatmış vəsaitlərin ötürülməsinə görə cavabdehlik daşıyacaq. İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı, İnvestisiya Şirkəti hər hansı məsuliyyət daşımır.

13.3. Offertanın qüvvədə olduğu müddətdə, vergi qanunvericiliyi dəyişərsə, Müştərinin vergi öhdəliyində fərqlər yarana bilər. Müştəri bu cür dəyişikliklə bağlı, müvafiq qanunvericiliyin tələblərinə əməl edəcəyini bəyan edir.

13.4. Hər hansı anlaşılmazlığın yaranmaması üçün, Müştəri anlayır ki, Platformada göstərilən məbləğin həcmi ilə Müştərinin əldə edəcəyi xalis məbləğ arasında fərq yarana bilər.

13.5. ABŞ emitentlərindən alınan dividendlər də daxil olmaqla, Müştərinin gəlirləri birbaşa mənbədə vergitutmaya cəlb edilə bilər. ABŞ və Azərbaycan Respublikası arasındakı vergi sazişinə əsasən, güzəştli 10%-lik vergi dərəcəsinin tətbiq edilməsi üçün Müştəri öz vergi rezidentliyi statusunu təsdiq etməlidir. Bu təsdiq, Müştərinin İnvestisiya Şirkətinə təqdim etdiyi Özünüqiymətləndirmə anketindəki məlumatlar əsasında aparılır. Müştəri öz qeyri-ABŞ vergi rezidentliyi statusunu təsdiq etmədiyi və ya verdiyi məlumatların yanlış olduğu halda, dividendlərdən standart 30% həcmində vergi tutula bilər. Vergilərin tutulması və ödənilməsi üzrə yekun məsuliyyət Müştərinin üzərinə düşür.

**14. Bazar məlumatları**

14.1. Platforma vasitəsilə Müştəriyə investisiya alətləri barədə və qiymətli kağızlar bazarı ilə bağlı məlumatlar, qrafiklər, təqdimatlar və ya hər hansı digər məzmun (birlikdə, bazar məlumatları) təqdim edilə bilər.

14.2. İnvestisiya Şirkəti heç bir halda, bu məlumatların dəqiq və düzgünlüyünə zəmanət vermir və bu cür məlumatlar İnvestisiya Şirkəti tərəfindən Müştəriyə verilən investisiya məsləhəti kimi dəyərləndirilə bilməz.

**15. Risklər barədə məlumatlandırma**

Müştəri Offertanı qəbul etməklə, aşağıda göstərilən bütün risklərlə tanış olduğunu və onları qəbul etdiyini təsdiq edir:

15.1. Risklər müxtəlif üsullarla, xüsusən aşağıda verilmiş yollarla təsnif edilə bilər:

**Baş vermə mənbələrinə görə:**

**Sistem riski** - ümumiyyətlə sistemin, yəni istər bank sisteminin, depozitar sistemin, ticarət sisteminin, kliring sisteminin, istərsə də qiymətli kağızlar bazarını təşkil edən digər strukturların fəaliyyəti ilə bağlı risk;

**Qeyri-sistem (fərdi) risk** - qiymətli kağızlar bazarının konkret iştirakçısının: investorun, Şirkətin, səlahiyyətli idarəçinin, ticarət meydançasının, depozitarinin, bankın, emitentin, qiymətli kağızlar bazarını tənzimləyicilərin və s. risklər.

**Risk faktorlarına görə:**

**İqtisadi risk** - iqtisadi xarakterli əlverişsiz şəraitlərin yaranması riski. Belə risklər arasında aşağıdakıları xüsusi olaraq göstərmək lazımdır:

**Qiymət riski** - qiymətlərin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

**Bazar riski** - bazar qiymətlərində olan dəyişikliklərdən yaranan balans və balansdan kənar mövqelər üzrə itki riskləri;

**Valyuta riski** - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

**Faiz riski** - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;

**İnflyasiya riski** - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;

**Likvidlik riski** - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;

**Əməliyyat riski** - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;

**Hüquqi risk** - qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;

**Sosial-siyasi** – siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;

**Cinayət** - üçüncü şəxslərin və/yaxud Şirkətin əməkdaşlarının qanunsuz əməlləri, məsələn, sənədli formada buraxılmış qiymətli kağızların saxtalaşdırılması, dələduzluq, kompüter sistemlərindən və məxfi məlumatlardan icazəsiz istifadə ilə bağlı risk;

**Əməliyyat (texniki, texnoloji, kadr)** - informasiya, elektrik və digər sistemlərin nasazlığı, yaxud bazar infrastrukturunun, o cümlədən əməliyyatların aparılması texnologiyasının, idarəetmə, uçot və nəzarət prosedurlarının qeyri-mükəmməliyi, yaxud personalın hərəkəti (hərəkətsizliyi) nəticəsində baş vermiş birbaşa və ya dolayı itkilər riski;

**Təbii** - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər);

**Texnogen** - insanın təsərrüfat fəaliyyətindən yaranan risk: qəza şəraitləri, yanğınlar və s.

**Müştəri üçün iqtisadi nəticələrə görə:**

**Gəliri itirmə riski** - investisiyalardan gözlənilən gəlirin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

**İnvestisiya qoyulan vəsaitlərin itirilməsi riski** - investisiya qoyulmuş vəsaitlərin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

**İnvestisiya qoyulan məbləğdən artıq olan itki riski** - tək gözlənilən gəlirin və investisiya qoyulan vəsaitlərin itirilməsinə deyil, həmçinin itkinin investisiya qoyulmuş məbləğdən artıq olmasına səbəb olan hadisənin baş verməsi mümkünlüyü.

**Müştərinin risk mənbəyi ilə əlaqəsi ilə bağlı:**

**Birbaşa risk** - riskin mənbəyi birbaşa olaraq Müştəri ilə hər hansı münasibətlərdən asılıdır;

**Vasitəli risk** - Müştəri üçün əlverişsiz olan hadisənin Müştəri ilə birbaşa bağlı olmayan, lakin son nəticədə Müştərinin itki ilə üzləşməsinə gətirib çıxaracaq hadisələr silsiləsini doğuran mənbədə baş verməsi mümkünlüyü.

**CFD və Kriptovalyutalarla bağlı xüsusi risklər**

**Yüksək volatillik riski:** Kriptovalyutalar kimi baza aktivlərinin qiyməti qısa müddət ərzində kəskin şəkildə dəyişə bilər. Kredit çiyni olmasa belə, bu, yatırılan vəsaitin əhəmiyyətli hissəsinin və ya hamısının itirilməsinə səbəb ola bilər.

**Baza aktivinə sahib olmama riski:** Müştəri başa düşür ki, o, CFD aldığı zaman baza aktivinə (kriptovalyutaya) sahib olmur, yalnız onun qiymət dəyişikliyinə dair proqnoz verir.

**Tənzimləmə riski:** Kriptovalyutaların hüquqi statusu bir çox yurisdiksiyalarda qeyri-müəyyəndir və dəyişə bilər. Gələcək qanunvericilik dəyişiklikləri onların dəyərinə və ya ticarət imkanlarına mənfi təsir göstərə bilər.

**16. Müştəri məlumatlarından istifadə**

16.1. İnvestisiya Şirkəti Müştəri Məlumatlarının toplanması, işlənməsi, ötürülməsi və mühafizəsini təmin edir.

16.2. Müştəri Məlumatlarının toplanması bir qayda olaraq, İnvestisiya Şirkəti və bank tərəfindən məlumatların Müştəri tərəfindən könüllü qaydada təqdim edilməsi, digər mənbələrdən və/və ya İnvestisiya xidmətlərinin göstərilməsi zamanı yaranan məlumatların əldə edilməsi, vasitəsilə həyata keçirilir.

16.3. Müştəri bu Offertanı imzalamaqla razılıq verir ki, onun barəsində toplanan məlumatlardan investisiya xidmətlərinin göstərilməsi, satış və marketinq, müvafiq qanunvericilik tələblərinə uyğunluq, xidmət keyfiyyətinin artırılması məqsədilə istifadə edilə bilər.

16.4. Müştəri anlayır və razılıq verir ki, investisiya xidmətlərinin göstərilməsi üçün Müştəri məlumatları "Rabitəbank" ASC-yə və Xarici Brokerə, müvafiq qanunvericiliklə nəzərdə tutulduqda isə digər 3-cü şəxslərə ötürülə bilər və bu cür məlumatların ötürülməsi nəticəsində Müştəriyə dəyən hər hansı zərərə görə məsuliyyət daşımır.

**17. Müqavilənin müddəti və xitamı**

17.1. Offerta Müştəri tərəfindən imzalandığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Offerta Müştəri tərəfindən gücləndirilmiş elektron imza vasitəsilə imzalanır.

17.2. İnvestisiya hesabı bağlandıqda, Offertaya xitam verilmiş hesab edilir.

17.3. Müştəri tərəfindən İnvestisiya hesabının bağlanması zamanı investisiya alətləri satılaraq pul vəsaitinə çevrilməli və həmin vəsait Müştərinin seçdiyi bank hesabına köçürülməlidir.

17.4. İnvestisiya Şirkəti aşağıdakı hallarda birtərəfli qaydada investisiya hesabını bağlaya bilər:
17.4.1. Müştərinin bank hesabları bağlandıqda;

17.4.2. Mobil tətbiqdən istifadəyə hər hansı səbəblə xitam verildikdə;

17.4.3. Müştərinin təsdiq və zəmanətləri düzgün və dəqiq olmadıqda;

17.4.4. Müştəri tərəfindən investisiya hesabı üzrə 1 il müddətində hər hansı əməliyyat aparılmadıqda;

17.4.5. Xarici Broker tərəfindən bu cür qərar qəbul edildikdə;

17.4.6. İnvestisiya hesabından konvertasiya məqsədləri, dələduzluq, qeyri-qanuni əməliyyatların icrası, çirki pulların yuyulması və s. məqsədlər üçün istifadə edildikdə;

17.4.7. Qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

17.5. İnvestisiya hesabı birtərəfli qaydada bağlandığı təqdirdə, Müştəriyə məxsus İnvestisiya alətləri Müştərinin razılığı olmadan satılaraq pul vəsaitinə çevriləcək və Müştərinin seçdiyi bank hesabına köçürüləcək.

17.6. Müqaviləyə xitam verildikdə aktivlərin qaytarılması qaydası:

17.6.1. İcrası Xarici Broker tərəfindən həyata keçirilən aktivlərin qaytarılması: İnvestisiya hesabı bağlandıqda, Müştəriyə məxsus bu növ bütün investisiya alətləri satılır. Əldə edilmiş pul vəsaiti, müvafiq komissiya və xərclər çıxıldıqdan sonra Müştərinin bank hesabına köçürülür. Bu aktivlərin qiymətli kağız şəklində qaytarılması həyata keçirilmir.

17.6.2. Uçotu Milli Depozit Mərkəzində (MDM) aparılan aktivlərin qaytarılması: Müştərinin MDM-də uçotu aparılan aktivlərinin qaytarılması barədə sorğusuna əsasən, Şirkət yoxlama apardıqdan və bütün müvafiq komissiya və xərcləri çıxdıqdan sonra pul vəsaitlərinin qaytarılmasını və/və ya qiymətli kağızların Müştərinin göstərdiyi başqa depo-hesaba köçürülməsini təmin edir. Bu əməliyyatlar Müştəridən düzgün sorğu alındığı andan 3 (üç) iş günü ərzində həyata keçirilir.

**18. Tərəflərin məsuliyyəti**

18.1. İnvestisiya Şirkəti Müştəri qarşısında Müştəri Sifarişlərinə və bu Offertaya lazımi qaydada və vaxtında əməl etməməyə görə bu cür əməlin İnvestisiya Şirkətinin qəsd və ya kobud ehtiyatsızlığı səbəbindən yarandığı hallarda məsuliyyət daşıyır.

18.2. İnvestisiya Şirkəti aşağıdakı səbəblərdən yaranan iddialara görə Müştəri qarşısında heç bir məsuliyyət daşımır: (a) hər hansı bir birja, kliring mərkəzi və ya digər broker şirkəti və ya digər 3-cü şəxsin ucbatından Müştəriyə hər hansı zərərə görə; (b) vəsaitlərin köçürülməsində baş verən gecikmələr, yanlışlıqlarla bağlı dəyən zərərlərə görə; (c) Hesab əməliyyatlarının məhdudlaşdırılması və ya hesabın bağlanması qanunvericilik və ya Offerta çərçivəsində həyata keçirilirsə, bununla bağlı Müştəriyə dəyən zərərə görə.

18.3. Tərəflərdən heç biri bir-birinin qarşısında hər hansı dolayı zərərlərə görə məsuliyyət daşımır.

18.4. İnvestisiya Şirkətindən heç bir halda qüvvədə olan qanunvericiliyə zidd hərəkətin və ya hərəkətsizliyin icrası tələb edilə bilməz və bununla bağlı, İnvestisiya Şirkəti Müştəri qarşısında hər hansı məsuliyyətdən azad edilir.

18.5. Fors-major: Tərəflər bu Offertanın şərtlərini fors-major (qarşısıalınmaz qüvvə) hallarında icra etməməyə görə məsuliyyətdən azad olunurlar. Belə hallara elektrik kəsintisi, telefon, faks və ya internet kabelində yaranan problem, Elektron Ticarət Sistemlərində nasazlıq, zəlzələ, daşqın, yanğın, təbii fəlakət, vətəndaş müharibəsi, terror aktı, işçi tətili və bu kimi digər hallar aiddir. Lakin, fors majora məruz qalan tərəf dəyə biləcək zərərin minimal olmasını üçün lazımı tədbirlər görməlidir. Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 10 (on) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir. Vaxtında xəbərdar etməmə halı fors-major halına əsaslanma hüququ vermir. Fors-major halı 30 (otuz) gündən artıq davam etdikdə Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı bildiriş təqdim etməklə bu Offertaya xitam verə bilər.

**19. Tətbiq olunan hüquq və məhkəmə aidiyyəti**

19.1. Offertadan irəli gələn münasibətlər, habelə Offertanın etibarsızlığı ilə bağlı münasibətlər, məzmunundan ayrı qayda irəli gəlmirsə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı" haqqında Azərbaycan Respublikası qanunu, Azərbaycan Respublikası Mərkəzi Bankının qəbul etdiyi normativ xarakterli aktlar, Azərbaycan Respublikasının digər hüquqi aktları ilə tənzimlənir.

19.2. Offerta üzrə hər hansı maddənin etibarsızlığı Offertanın digər müddəalarının və ya bütövlükdə etibarsızlığına səbəb olmur.

19.3. Offertadan və ya onunla əlaqədar yaranan bütün mübahisələr, münaqişələr, fikir ayrılıqları və/və ya tələblər Tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

19.4. Danışıqlar yolu ilə nizama salınmayan mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

**20. Digər müddəalar**

20.1. Offerta elektron qaydada tərtib və təsdiq edilir.

20.2. Müştəri anlayır və qəbul edir ki, İnvestisiya Şirkəti tərəfindən Offertada qeyd olunan investisiya xidmətlərinin göstərilməsinə dair şərtlər və qaydalar birtərəfli şəkildə dəyişdirilə bilər.

20.3. Müştərinin əlaqə vasitələri (ünvanı, telefon nömrəsi və.s.) dəyişdikdə, o, müvafiq dəyişikliyin baş verdiyi tarixdən 5 (beş) iş günü müddətində "Capital Partners İnvestisiya şirkəti" QSC-nin Məlumat Mərkəzinə (nömrə) məlumat verməlidir. Belə xəbərdarlığın edilmədiyi təqdirdə Müştəriyə göndərilən istənilən göndəriş (sms, bildiriş, tələb, pretenziya və.s) onun bu Müqavilənin şərtlərinə uyğun olaraq son məlum olan ünvanına/telefon nömrəsinə göndərilir və Müştəri həmin ünvanda yaşamasa/telefon nömrəsinə sahib olmasa da lazımı qaydada çatdırılmış hesab olunur.

20.4. Müştəri tərəfindən müraciət, təklif və şikayətlərin İnvestisiya Şirkətinin, "Rabitəbank"-ASC-nin Məlumat Mərkəzinin, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq struktur bölməsinə təqdim edilməsi aşağıdakı əlaqə vasitələri ilə həyata keçirilə bilər:

**İnvestisiya Şirkəti üzrə:**

Qaynar xətt: + 012 5982259

Elektron poçt: info@capitalpartners.az

"Capital Partners İnvestisiya Şirkəti"QSC-nin Məlumat Mərkəzi

**Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:**

Qaynar xətt: +99412 966

Telefon nömrəsi: +99412 4935058

**21. İnvestisiya Şirkətinin rekvizitləri**

İnvestisiya Şirkəti:

Adı: “Capital Partners İnvestisiya Şirkəti” QSC

VÖEN: 1700813741

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Bünyad Sərdarov küçəsi, 1.

Bank Rekvizitləri:

Bankın Adı: "Rabitəbank" ASC

Bankın VÖEN-i: 9900001061

Valyuta: USD

H/hesabı (IBAN): AZ36RBTA00401900200840039510

Kod: 506399

M/hesabı: AZ61NABZ01350100000000006944

S.W.I.F.T.: RBTAAZ22